DÜNYA XƏBƏRLƏRİ

Rusiya və Ukraynadan qarşılıqlı zərbələr: ölənlər var

Noyabr 25, 2026



Kiyev. 25 noyabr

Noyabrın 25-nə keçən gecə Rusiya qoşunlarının Ukraynanın Sumı vilayətinə endirdiyi hava zərbələri iki nəfərin həyatına son qoyub, üç nəfər yaralanıb.

Xarkov vilayətinin Çuquyev rayonunda Rusiya dronu sərnişin avtobusunu vurub. Bir nəfər həlak olub, yeddi nəfər xəsarət alıb.

Kiyev vilayətinə dron zərbəsindən isə 52 yaşlı yerli sakin ölüb.

Ukrayna Hərbi Hava Qüvvələri gecə ərzində 47-si reaktiv olmaqla, 88 dronun zərərsizləşdirildiyini bildirib. Rusiyanın Ukraynaya 112 dronla hücum etdiyi, onlardan 18-nin hədəfə dəydiyi açıqlanıb.

Rusiya qoşunları ötən gecə Ukraynanın "Naftoqaz" şirkətinin Poltava vilayətindəki qaz hasilatı obyektinə də zərbə endirib. Yanğın baş verib, obyektin fəaliyyəti dayandırılıb.

Ukrayna qoşunları isə noyabrın 25-nə keçən gecə Rusiyanın Samara vilayətinə hücum edib, bir nəfər həlak olub. Vilayətin qubernatoru **Vyaçeslav Fedorişşev** region səmasında azı 145 dronun vurulduğunu deyib.

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur